# YADDAŞIN ÇİNGİZ AĞRISI

## *Məlahət Soltanqızının «Yarımçıq ömrün xatirəsi» poemasında əsas xarakterik cizgilər*

Həyat həqiqətinə sadiq qalaraq idealını tərənnüm edən yaradıcının hər hansı bir əsəri o vaxt təsiredici və yadda qalan olur ki, yaddaş güvənci ilə yazılır. Yaddaş isə elə fenomendir ki, onu həyatın nə acısı qorxudur, nə də şirini aldadıb dəyişə bilir. 90-cı illərin əvvəllərində baş verən hadisələr hələ ki şahidlərin həyatda varlığı ilə zaman-zaman gündəmə gəlir. Doğrudur, bir çox şahidlər dünyasını dəyişib və özləri ilə birgə həmin dövrün çox ziddiyyətli, qarmaqarışıq sirlərini də apardılar. Ancaq həqiqətlər düşüncə buludu kimi başımızın üstündə dolanır və bizi məcbur edir ki, həmin həqiqətləri öz rəngində görə bilək. Həqiqətləri öz rəngində görmək həmin həqiqətlərə sadiq qalaraq sözə gətirməkdir.

Xocalı hadisələri Qarabağ mühabirəsi epopeyasının ən ağrılı səhifələridir. İnsanlar müharibə düşüncəsindən uzaqlaşdıqca, ağrılı səhifələri də oxumağa az meyilli olur, sülh dövrünün melonxorik təbiəti ağrıların acısına qatlaşmağa mane olur. Beləliklə, ağrıya doğru meyllənməkdə xüsusi bir «tənbəllik» sindromu sədd yaradır.

Vüqar Hüseynov, Əlif Hacıyev... və digər Xocalı qəhrəmanları ilə bir sırada həmin dövrün hadisələrini daha doğrusu, hadisələrin nəticəsini video-kameranın yaddaşına köçürməklə əbədiləşdirən Çingiz Fuad oğlunun adı da qanunauyğun olaraq tez-tez çəkilir.

Çingiz Fuad oğlu Mustafayevi indi yeni nəsil Azərbaycanın milli qəhrəmanı olaraq tanıyır. Bəs bu gənci alovlu vətənpərvər kimi yetirən mühit onu ölümün gözünə dik baxıb, ölümlə pəncə-pəncəyə gətirən qəhrəmanlıq xarakteri... haqqında nə demək olar. Bir var hər hansı bir şəxsin yaşam yolunu faktlar və dəqiq tarixlərlə göstərəsən. Bir də var yeni nəsil üçün örnək olacaq qəhrəmanı ədəbi obraza çevirəsən, onun həyatını bədii təxəyyüllə süsləyərək təqdim edəsən.

Məlahət Soltanqızı Çingiz Fuad oğlu haqqında yazdığı «Yarımçıq ömrün xatirəsi» poemasına qədər söz içində ədəbi təcrübə yolu keçib. «Ruhun savaşı» poemasında Azərbaycanın mənəvi tarixinə poetik nəzər sərgiləmiş, olum-ölüm arası yolun mahiyyətini sözlə açmağa cəhd etmişdi. Bu əsəri ilə o, insanı mənən böyüdən, yaxud ruhən öldürən duyğuları bir-birilə qarşılaşdırır və ziddiyyətlər arasından həqiqətləri üzə çıxarmağa çalışır. «Könül yarası», «Yoxsulluq» kimi poemalarında da onun insanın daxili aləminə nüfuz etmək cəhdləri kifayət qədər uğurlu alınıb. O, əslində lirik şairdir. Həyat hadisələrini də incə duyğularla, zərif hisslərlə sözə gətirir. Yəqin ki, elə lirikaya daha çox kökləndiyindən poemalarında da elə kiçik şeir parçalarında hisslərini necə ifadə eləyirsə, həmin yolla gedir. Bir neçə kitabın müəllifidir. «Azərbaycan realist poeziyasında romantika» (1920-1950) tədqiqat əsəri də onun ədəbiyyatda, sözdə köklü, köməkçi bir yer tutduğunu təsdiqləyir. Yəni nəzəri hazırlığı ilə də poeziyaya bağlıdır.

* * *

Belinski vaxtı ilə poeziyanın həyat hadisələri iki istiqamətdə qavrayırdı. Bu gün heç də iddia edə bilmərik ki, biz bu həyat hadisələrindən o qədər də qabağa gedə bilmişik. Mahiyyətcə söz yenə də həyat hadisələrinin arxasınca sürünür. Ancaq bütün hallarda poeziya öz qüdrəti ilə sözün həyat hadisələrinin arxasınca sürünməsi ilə barışmır. Və beləliklə, biz böyük ədəbi həqiqətlə qarşılaşmalı olur, fikir yürüdür, görünəni və görünməyəni ayırmağa çalışırıq. Yəni həyatda olanı poeziyada görürük, ya görmürük. Və yaxud arzu olunanı poeziyada görürük, ya görmürük. Bütün bunlar bizə elə böyük həqiqətlər haqqında danışır ki, o həqiqətləri biz sanki öz həyatımızla safçürük edirik. Hansı nə dərəcədə uyğun gəlir, ya gəlmir. Həyat həqiqətlərini yazmaq, onu olduğu kimi - təkcə öz zamanındakılara yox, həm də gələcək zamanın insanına çatdırmaq... bu hər halda təkcə mənəvi problem deyildir. Həm də xüsusi yazıçı fədakarlığı istəyən problem idi. həyat hadisələrini yazmaq, onu qədərincə normal, qədə-rincə anlaşıqlı bir səviyyədə araya-ər-səyə gətirmək bu ayrıca bir problemdir. Bunun üçün gərək poeziya ilə həyat arasındakı düşüncə problemlərini qavra-yasan. Məlahət Soltanqızının «Ya-rımçıq ömrün xatirəsi» poeması bizə imkan verir ki, onun poeması ilə həyat arasındakı bağlılığı qədərincə araşdıraq və ona münasibət bildirək. Zaman-zaman klassiklər, fikir sahibləri poema ilə həyat arasında əlaqə axtarıblar. Poe-ziya ilə həyatın görünən və görünməyən tərəfləri arasında bağlılıq axtarıblar. Bütün bunlar son nəticədə o yerə gətirib çıxarıb ki, həyata bağlı olan tərəf qəbul olunub, həyata bağlı olmayan tərəf unudulub. Sözdə, sənətdə poeziyanın həyata bağlı tərəfi həmişə müzakirədə, həmişə diqqətdə olub. Belinski doğru deyirdi: «Poeziya həyat hadisələrini, necə deyərlər, iki vasitə ilə qavrayır və əks etdirir. Bu vasitələrdən hər ikisi eyni məqsədə xidmət etsə də, lakin yenə də bir-birinin ziddinədir. Şair özünün həyata



olan baxışının tərzindən, içərisində yaşadığı dünyaya, öz əsrinə və xalqa olan münasibətindən asılı olaraq həyatı, ya öz xüsusi ideallarında və xəyalında təsəvvür etdiyi kimi can-landırır, yaxud varlığın bütün tə-fər-rüatına, rənglərinə və xüsusiy-yətlərinə sadiq qalaraq həyatı bütün həqiqətilə inikas etdirir» (V.Q.Belinski «Rus ədəbiyyatı klassikləri haqqında», Bakı-1954, səh.261). Elə buradaca Belinski sözünün davamında poemanı ideal və real olmaqla iki növə ayırır. Söhbət onda deyil ki, Belinskinin bölgüsü müasir dünya ədəbi prosesində öz gücündə qalır, ya yox. Məsələnin məğzi ondadır ki, şair öz əsərində həyat həqiqətlərinə nə dərəcədə sadiq qalır. Yoxsa düşüncələrini xəyalı ilə qanadlandıraraq ədəbi qəhrəmanı ilə cəmiy-yət arasında məkan vəhdətini göz-ləməyib. Məlahət Soltanqızı elə əsərin əvvəlindəcə bir körpəni dünyaya gətirən ailə mühitindən başlayaraq bizi, yəni öz oxucusunu real həyat həqiqəti haqqında bir hekayət danışacağına inandırır. Xüsusilə onun uşaqlıq çağ-larının təsvirində ata-baba yurdundakı mühitində Çingizin özünün boy artımı yolunda olanları sanki kino lenti kimi gözlərimizin önünə gətirir:

Bir xoş təsadüfə,  
Bir xoş müjdəyə.  
Çingizin özü yox, gözü gülərdi.  
Qapalıydı, hər sözün  
Açıb danışmaz idi.  
Hamı sevirdi onu.  
Bütün dostlar, qohumlar.  
Kimin nə dərdi olsa,  
Onunla bölüşərdi,  
Çingizsə dostlarını  
Saatlarca dinləyib  
Bir nəsihət verərdi.  
İstəməzdi dostların  
Əziz qəlbini qırsın.  
Ya özündən kiçiyə  
Çönüb bir sillə vursun.  
Onun baxışlarında  
Həyat sevgisi vardı  
Vətən sevgisi vardı.

Bir gəncin hansı hisslərlə böyüməsi onun əsas xarakterik cizgiləri, yəni gələcəkdə necə adam olması, cəmiyyətdə öz yerini necə tapa biləcəyi, və bu yeri necə qoruyacağı... artıq müəl-lifin təsvir etdiyi misralarda görünən istiqamətdir. Çünki onun xarakterinin bünövrəsində bir insan tamlığı, bir əqidə bütövlüyü görünür. o təbiət etibarı ilə haqsızlığa dözməyən bir oğul olacaq. Bu xəbəri bizə ilkin verən də elə müəllifin özüdür. Müəllif sadə, anlaşıqlı sözü ifadə etmək yolunda heç bir mürəkkəbliyə qaçmadan ədəbi qəhrə-manının həyatını dumana bürümədən təqdim edir. Biz Çingizi aramızda olan bir gənc kimi görürük və təəssüf edirik ki, elə onu gözümüzün qabağında olanda görə bilməmişik. Çin-giz hiss-ləri, duyğuları aşıb-daşan bir gəncdir. Onun atasını-anasını sevdiyi qədər in-sanlara sevgisi var. Həyatı sev-diyi qə-dər Vətənə sevgisi var. Bəlkə həm-yaşıdlarının çoxu ona bənzəmək, onun kimi olmaq istəyirdi... Bu məqam-ları da müəllif yenə həyati cizgilərlə ve-rir:

Qızlar məhəbbətlə baxardı ona.  
Çingizin bir baxışı üçün  
Girərdilər dondan-dona  
Çingiz insanlara dəyər verərdi  
Kimsəni kimsədən ayırmazdı o  
Qəlbində hər kəsin öz yeri vardı.  
Sözündə ötkəm idi.  
Dözməzdi haqsızlığa  
Durardı dostlarının  
Arxasında dağ kimi

Çingiz ilk gəncliyindən intellektual olub, qarşısına çıxan hər hansı problemi ağlının gücü ilə həll etməyə çalışıb. Hər hansı çətinliyi məntiqin gücünə sübuta yetirib. Burada biz daha bir sualın cavabını da tapırıq. O, video-kameranı silah kimi qəbul edərkən sanki ağılın savaşına üstünlük vermişdi. Müəllif də elə bunu nəzərdə tutaraq onu qolunun gücünə güvənən yox, ağlının gücünə arxalanan xarakter kimi görür:

Qolunun gücünə güvənməzdi o  
Ağlının gücünə güvənərdi o  
Dostlarına hörməti,  
Sonsuz sədaqətiylə  
Sevdirmişdi özünü  
Danışmağı sevməzdi  
Hər yerdə, hər zamanda  
Öz işi, sənətiylə,  
Yaxşı əməlləriylə  
Seçilirdi hamıdan  
Uşaqlıqdan beləydi,  
Dar macalda hamının,  
İmdadına yetərdi.

Çingiz Fuad oğlunu rəsmi xroni-kalarda çox gərgin məqamlarda görmüşük. Siyasi dolaşıqlar torunda, çaşmış əsgərlərin cəbhəni qoyub Bakıya tərəf dönüşündə video-kamerası ilə onların qarşısında sipər kimi dayanır. Azərbaycanın taleyinin məhz Laçında həll olunduğunu bu cəsarətli hərəkəti ilə siyasiləşmiş silahlı dəstələrə anlatmaq istəyir. Və elə bu yerdə yerinə düşür ki, deyək Çingiz qaranlıqları dağıtmaq gücündə olan işıq idi.

Məlahət Soltanqızının təsvirləri ilə tanıdığımız Çingiz həyatdakı Fuad oğ-luna çox yaxındır. Müəllifin ədəbi qəh-rəmanı ilə həyatdakı xarakterin, həyatdakı qəhrəmanın təbiətinin üst-üstə düşməsi onun kifayət qədər ha-zırlıq yolu keçməsi ilə bağlıdır. Mə-lahət Soltanqızının «Ruhun savaşı» poemasını mən öz müşahidələrimlə «Yarımçıq ömrün xatirəsi» poemasının nüvəsində, bətnində görürəm. «Yarım-çıq ömrün xatirəsi»ndə də biz olum ölüm arası bir vulkan müşahidə edirik. «Ruhun savaşı» əsəri artıq qabaqcadan yeraltı uğultulardan maqmaların hərə-kətindən xəbər verir. «Ruhun savaşı»n-dan bir parçaya diqqət edək:

Olumdan ölümə bir yol gedirik...  
Yaxşını yamanı tanımaz olduq.  
Bəzən bulud kimi  
Boşaldıq, dolduq.  
Bulandıq, durulduq  
Gəzdik, yorulduq.  
Gəncliyin tükənməz odu, həvəsi,  
Yoxdu duyğuların bəndi, bərəsi.  
Bir ağac kölgəsi,  
Bir bulaq başı,  
Sevən könüllərin ömür sirdaşı.  
Arzuların işığında yol gedib,  
Baxışların alovunda əridik.  
Elə bildik dünya bizim dünyamız,  
Hər arzumuz çiçək açar, gül açar.  
Nədən belə xəyallara qapıldıq,  
Elə bildik kədər bizdən gen qaçar.

Sanki bu kiçik parça elə «Yarımçıq ömrün xatirəsi» əsərinin yazılacağından xəbər verir. «Ruhun savaşı»ndakı bu parça və digər parçalar «Yarımçıq öm-rün xatirəsi» əsərinin ayrı-ayrı hissələri arasında müəllifin və obrazın düşün-cələri kimi təsəvvür olunur.

Məlahət Soltanqızının indiyə qədər yazıb-yaratdığı nəyi varsa, hamısı qəlbinin, ruhunun səsi kimi yazıya gəlib. Onun yazdıqlarında biz həyatı qoruyan, həyatın dəyərini bilən gücün tərənnümü ilə qarşılaşırıq. Sanki Məlahət Soltanqızı ruhundan həyata elə bir qəhrəman gətirmək istəyir ki, Atlant göy qübbəsini çiynində saxlayıb yeri qoruduğu kimi onun qəhrəmanı da şər qüvvələr qarşısında beləcə dayanıb həyatı qoruya bilsin. Yəqin ki, Məlahət Soltanqızını Çingiz obrazına gətirən əsas səbəb elə bu istəkdir.

Çingizin əsas fəaliyyət dövrü şübhəsiz, Yuxarı Qarabağın daha yuxarı yerləri ilə bağlıdır. Xocalıya qədər artıq o, bütün Azərbaycan tərəfindən görünən və tanınan bir sima idi. O, Xocalı yoluna taleyinin zirvəsi kimi gəlib çatmışdı. Oxucu da əsas boyu Çingizi bu yolda yaddaşından və xronikadan tanıdığı kimi görür.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***